# KÖVRƏK DUYĞULARIN TƏRƏNNÜMÇÜSÜ



■ Oqtay Rza

Belə mahnı sözləri var: "Mənə dəniz verin". Həzinliklə bərabər xoş ovqat bəxş edən şərqinin sözləri, sonradan bilmişəm ki, tanınmış şair Sabir Abdininmiş.

Bu yaxınlarda Sabir Abdinin təzəcə işıq üzü görmüş "Adını sən seç" şeirlər kitabını diqqətlə oxudum, kitabda Nizaməddin Şəmsizadənin "Bədii sözə ehtiram" sərlövhəli məqaləsi yer alıb. Yazıda diqqət çəkən belə cümlələrlə rastlaşdım: "Dünyada şairlik ixtisası yoxdur. Təhsilin sahəsinə görə hüquqşünas, aqronom, çilingər və s. peşələr var. İnsan ya şair doğulur, ya da yox, sadəcə nəzm qaydaları üzrə sözqoşan olur..."

Nüfuzlu hüquqşünas Sabir Abdin yüz on yarpaqdan ibarət misra düzümünü maraqlı başlıqlarla bölmələrə ayırıb. "Bir sən idin, bir də mən", "Pəncərəmi döyən yağış", "Bağlı qapılar", "Ölüm və mən". Mövzu rəngarəngliyi, məna dərinliyi, təsvir üsulları o qədər təsirləndirici oldu ki, bəzi bəndləri, beytləri, sətirləri seçib ayırdım. Onlardan bir neçəsini misal göstərmək istəyirəm:

*Bir tərəfdə yağış yağır,*
*Bir tərəfdən günəş baxır.*
*Bir tərəfdə şimşək çaxır...*
*Azərbaycan, Azərbaycan!*

İşğala məruz qalan, nankor qonşuların tapdalayıb xarabaxanaya çevirdiyi torpaqlarımızın taleyi Sabir müəllimi də bərk düşündürür. Kövrək duyğuların tərənnümçüsü ürək ağrısı ilə yazır:

*Bənövşənin xalı yox,*
*Göz açmağa halı yox;*
*Durnaların yolu yox,*
*Qarabağa yaz gəldi.*

"Sizsiz, sizinlə", "Sənə məktublarım", "Qınamasın yurdum məni" - bu şeirlər Sabir Abdin qələminin vətənpərvər oxuculara töhfələridir.

Əbədiyaşar, unudulmaz Milli Qəhrəmanımız Mübariz İbrahimliyə həsr etdiyi şeir daha təsirlidir:

*Böyük türk ellərində,*
*Doğma Azərbaycanın*
*Hər qarış torpağında,*
*Hər könüldə, ürəkdə,*
*Hər arzuda, diləkdə*
*Sənin evin, ocağın var,*
*Sənin isti bucağın var!*




Odlar ölkəsinin gözəlliklərini söz rəssamı kimi nəzərimizdə canlandıran müəllif doğulduğu, boyabaşa çatdığı dədə-baba məskənini, uşaqlıq çağlarını, həyatın enişli-yoxuşlu yollarında sabaha doğru inamla irəliləməyini yadda qalan lövhələrlə xatırladır. O, dostu Elman Eldar oğluna ünvanladığı lirik nümunədə səmimiliyi, təbiiliyini sənətkarlıq bacarığı ilə rövnəqləndirərək deyir:

*Qayıt kəndin dağ yoluna,*
*O yollardan bir daş gətir;*
*Yorulmuşam, tək qalmışam,*
*Mənə qardaş, sirdaş gətir!*

Kitabda zövq oxşayan nəğmə mətnlərinə də yer verilib. İstedadlı bəstəkar Nazim Əzimlinin musiqisi ilə uyğunlaşan poeziya mətnləri də təqdirəlayiqdir.

Ümumiyyətlə, tanınmış şair Sabir Abdinin "Adını sən seç" toplusu onun ictimaiyyətlə növbəti, uğurlu görüşü sayılmalıdır.